# Elmdə və sənətdə çığıraçanlar tandemi

## Ata və oğul Hüseynovların milli və beynəlmiləl yaradıcılıq yolu

(əvvəli ötən saylarımızda)

**Ata Rəhim Hüseynovun səmada bərq vuran ulduzlarla bəhsləşdiyi zaman oğul Fərhəng Hüseynov yerdə parlaqlığı ilə hamını heyran qoyan sənət ulduzu olur. Böyük Britaniyada nəşr olunan sanballı "Qrova" musiqi ensiklopediyasına Azərbaycanın səkkiz bəstəkarı ilə yanaşı onun da adı daxil edilir. Yaponiyada Fərhəng Hüseynova mükafatı təqdim edən yapon şahzadə onunla yanaşı Azərbaycanın da bir boy ucaldığını dilə gətirir: "Cavan oğlan! "Azərbaycan" sözü bu gün sizin şəxsinizdə ölkəmizdə ilk dəfədir ki, dildən-dilə düşür. Vətəniniz sizinlə fəxr eləməlidir, çünki onun övladı yaponların qəlbini riqqətə gətirib".**

Ölkənin musiqi ictimaiyyətini ayağa qaldırmış azərbaycanlı qonaq yaponların qəlbində artıq özünə yuva qurmuşdu. Müsabiqə günlərində Fərhəngin konsertinə tamaşa edib bəyənən, bəstəkarla yaxından tanış olan məşhur musiqiçi və iş adamı xanım Eyko Aoikinin həmyerlimizə yapon mövzusunda opera yazmağı təklif edir və təklifinin qəbulundan böyük məmnunluq duyduğunu bildirir. Yaponiyalı xanım qəhrəman yapon dənizçilərinin həyatından bəhs edən ssenarisini Fərhəngə təqdim edir...

### *Operada hadisələr*

on səkkizinci əsrdə baş verir və Yaponiyanın milli qəhrəmanı, yapon dənizçisi Kodayunun başına gələn əhvalatlardan, onun Sofiya adlı bir qızla eşq macərasından bəhs olunur. Kodayunun gəmisi dənizdə qasırğa nəticəsində batsa da, o, yoldaşları ilə birlikdə xilas olur, Rusiyanın Kamçatka yarımadasında sığınacaq tapır. Dörd ildən sonra yapon dənizçiləri rus tacirləri ilə birgə İrkutska gəlib çıxırlar. Kodayu vətəninə qayıtmaq üçün dəfələrlə II Yekaterinaya müraciət edir və nəhayət, Peterburqda onun qəbuluna düşə bilir. Rus çariçası yapon dənizçisinə vətəninə qayıtmağa icazə verir. Kodayu geri dönür, lakin ona paytaxt Edo şəhərində yaşamağı və Rusiya haqqında danışmağı qadağan edirlər. Yalnız on doqquz il sonra Kodayu doğma yurduna qayıda bilir... Bizim "Leyli və Məcnun" mövzusunu yada salan fabula azərbaycanlı bəstəkara çox doğma gəldiyindən və o, rus, Avropa, yapon musiqisinə dərindən bələd olduğundan yaradıcılıq işi tezliklə öz gözəl bəhrəsini verir. Əsərdə bəstəkar yapon klassik musiqisi ilə rus klassik opera üslubunun, xüsusilə, Pyotr İliç Çaykovskinin və Aleksandr Porfiryeviç Borodinin ənənələrini uzlaşdıraraq məlahətli melodiyaları ilə yaddaqalan musiqi epopeyası yaradır. Üçillik gərgin zəhmətdən sonra əsər tamamlanır və "Asaxi" televiziya şirkətinin 35 illiyinə həsr olunmuş ilk tamaşa 1993-cü ildə Tokionun Bunkamura Orçard zalında, sonra isə Osoxo və Sudzika şəhərlərində böyük uğurla keçir, televiziya ilə birbaşa transliyasiya olunaraq komprakt-diskə yazılır. "Kodayu" bütün tamaşaçıları heyrətə salır. Yapon şahzadəsi operanı Yaponiyanın ilk "Romeo və Cülyetta"sı adlandırır. Opera ölkənin mədəni həyatında çox əhəmiyyətli bir hadisəyə çevrilir. Eyko Aoki isə operanın çap olunmuş klavirindəki ön sözdə arzusunu bildirir: "Mən istərdim ki, "Kodayu" Cakoma Puççininin "Madam Batterflyay" operası kimi dünyanın bütün ölkələrində ifa olunsun". İlk milli yapon operası "Kodayu" yüz iyirmi milyonluq yapon xalqının musiqi tarixinə beləcə qədəm basır və hər iki ölkənin mədəniyyət tarixinə unudulmaz səhifələr yazaraq Azərbaycan-Yaponiya mədəni əlaqələrinin təməlini qoyur. 1992-ci ildən Türkiyədə yaşayan istedadlı bəstəkar və musiqişünas Ədənə şəhərindəki Çuxuroba universitetində gənc bəstəkarlara musiqi dünyasının sirlərini öyrətməklə yanaşı müxtəlif konsertlərdə, sənət görüşlərində, beynəlxalq müsabiqələrdə iştirak edir, musiqiçilər arasında solist, kvartet, orkestr ifaçısı kimi tanınır. Fərhəng Hüseynovun Yaponiyadan dünyaya yayılmış şöhrəti ona arasıkəsilməz melodiyaya çevrilən saysız-hesabsız sevinc notları bəxş edir. Bir çox ölkələrin teatrlarından ona opera və ya balet kimi irihəcmli musiqi əsərləri yazmaq üçün sifarişlər verilir. Məşhur türk musiqişünası və cərrahı Süha Dəmirtaşın iş adamı Çətin Önərə yazdığı məktubda belə bir maraqlı və ibrətamiz fikir var: "Əfəndim, Bethoven dövrünün imperatorlarını soruşsanız, Almaniyada onların adını bilən çətin tapılar. Lakin Bethoven, həmçinin onun əsərlərində adları çəkilən Çiardini, Valdşteyni, Brunsu hamı tanıyır. Çünki onlar Bethovenə bir zamanlar mənəvi və maddi dayaq duran vətənpərvər xeyriyyəçilərdir. Əgər dünyada adının, izinin qalmasını istəyirsənsə, gəl Fərhənglə səni tanış edim. Yaponlardan nümunə götür, onunla dostluq elə. Belə istedadları tarix az-az yetirir. Fürsəti əldən vermə!"



Çətin Önər həmyerlisinin yanğısını bütün çalarları ilə anlayır, çünki bu yanğıda ulu türkün ədalət qılıncının kəsəri, səma altında qəlblərə hakim kəsilən sevgi şərqilərinin ruhu cövlan edirdi. İncəsənət sevgili Çətin Ömərin təşəbbüsüylə Mersin Opera və Balet Teatrı Fərhəng Hüseynova "Aba kraliçası" adlı balet yazmağı sifariş verir. Antik dövrə aid baletin əsas mövzusu məhəbbət və Xeyirlə Şərin mübarizəsidir. Əhvalat Antoniya və Kleopatranın çarlığı dövründə baş verir. Həmin uzaq zamanlarda Roma imperiyasının muxtar bir əyaləti olan və müstəqillik uğrunda uzun müddət mübarizə aparan Obiya ölkəsini cəsur hökmdar Aba işğalçılara qarşı mübarizəyə qaldırır. Xeyirlə Şərin mübarizəsi fonunda dramatik səhnələrlə müşayiət olunan baletdə əsas qəhrəmanların həlak olmasına baxmayaraq, Xeyir Şərə qalib gəlir. Humanist ideyalardan və haqq ədalətdən bəhs edən sifarişi bəstəkar məmnuniyyətlə qəbul edir və libretto ürəyini fəth etdiyindən gərgin işləyərək qısa müddətdə əsəri tamamlayır. Balet libretto müəllifi Altay Bayramın və xoreoqraf Şamil Terequlovun iştirakı ilə Mersin Dövlət Opera və Balet Teatrının səhnəsində böyük müvəffəqiyyətlə göstərilir. Türkiyənin mətbuat aləmində bir birinin ardınca dərc olunan çoxsaylı məqalə və resenziyalar, həmçinin televiziya kanalları ilə verilən reportajlar uğurun hüdudsuz olduğunu təsdiqləyir. Müəllif janrın ən gözəl klassik ənənələrini məxsusi sənətkarlıqla tətbiq edib özünün yaradıcılıq manerasına uyğun üslubda rəqslərlə səslərin vəhdətindən qeyri-adi ahəngdarlıq yaratmağa nail olmuşdu. "Aba kraliçası" antik süjetinə görə ilk türk baleti kimi Mersin teatrının fəxri hesab olunur və Mərmərə festivalında 2005-2006-cı illər teatr mövsümünün ən yaxşı səhnə əsəri kimi qəbul edilir. Fərhəng Hüseynov "Azərbaycan övladı" adını türk musiqi irsinin salnaməsinə fəxrlə yazdırır və Şuşanın əbəs yerə Qafqazın Konservatoriyası adlanmadığını beynəlxalq aləmdə bir daha isbatlayır. Bununla da dünyanın dörd bir yanına səpələnmiş azərbaycanlıların müqəddəs və ləyaqətlə daşıdığı Qarabağlı qüruru-nu türk dünyasının alnına əbədi həkk edir.



### *Fərhəng Hüseynovun yaradıcılıq üslubu*

yeddi rənglə yeddi səsin uzlaşan çalarından yaranmış harmoniyadır. Musiqişünasların təbirincə onun musiqi üslubunun əsrarəngizliyi rəngarəng palitradan, forma və arxitektonik hissiyyatdan, möhkəm tembr duyumundan doğur və bu kamillik sadədən aliyə doğru musiqi sənətinin simfoniya, kantata, oratoriya, opera, balet əsərləri, kino musiqisi, həmçinin kiçik formalı bir çox kamera əsərləri, skripka, fortepiano, orqan üçün sonatalar, simli kvartet, skripka üçün pyeslər, mahnılar kimi müxtəlif janrlarda əsərlər yoğurmağa imkan verir. Fərhəngin təfəkküründən süzülüb gələn bu əsərlər haralarda səslənməyib?! Amerika Birləşmiş Ştatları, Almaniya, İsveçrə, Rusiya, Türkiyə, Yaponiya və onlarla digər ölkələrdə Fərhəng Hüseynovun əsərlərini məmnuniyyətlə dinləyib, alqışlayıb və müəllifinə əbədi şöhrət arzulayıblar. 1995-ci il. Amerika Birləşmiş Ştatların Nyu-York şəhəri. "Dünyaya Sülh Naminə Barış Cəmiyyəti"nin beynəlxalq müsabiqəsinə göndərilmiş əsərlər münsiflər tərəfindən qiymətləndirilir. Cəmiyyətin xüsusi "Zirvə" mükafatına yekdilliklə görkəmli Azərbaycan bəstəkarı Fərhəng Hüseynovun "Yer üzündə sülhə nail olunmalıdır" oratoriyasına verilir. Bu münasibətlə okeanın o tayından müəllifə göndərilmiş məktubda deyilir:

"Hörmətli cənab Hüseynov!

"Dünyada Sülh Naminə Barış Cəmiyyəti" Sizin "Yer üzündə sülhə nail olunmalıdır" adlandırdığınız gözəl oratoriyanızın xüsusi mükafata layiq görülməsi barədə qərarını xəbər vermək mənim üçün çox xoşdur.

Biz dünyanın çox yerindən yüzdən artıq yazarın 1995-ci il üçün sülh naminə çox istedadlı musiqi töhfəsini almışdıq. Liriklik və poetiklik cəhətdən rəngarəng olan və sülh arzusunu özündə əks etdirən hər bir əsəri diqqətlə, obyektiv surətdə dərhal nəzərdən keçirməyə başladıq. Təqdim olunan bütün əsərləri gözəlliyinə görə və müsabiqə yeri baxımından diqqətlə təhlil etdikdən sonra nəticədə bu əsərlərin içərisində xüsusi mükafatın Sizə verilməsi qərarına gəldik.

"Sülh zirvəsi" tituluna layiq görülməyiniz haqqında Siz ayrıca zərf alacaqsınız. Biz inanırıq ki, "Yer üzündə sülhə nail olunmalıdır"a görə alacağınız "Sülh zirvəsi" titulu daim barış rəmzi olacaq. "Sülh zirvəsi" sənədini və təltif olunmağınız haqqında sertifikatınızı göndərməkdən ötrü ünvanınızı bizə bildirməyi xahiş edirik. Biz böyük həvəslə Sizin bu işinizi izləyəcəyik. Ona görə ki, Sizin əsəriniz parlaq və dərin olmaqla yanaşı, sülh üçün musiqi istedadının gözəl töhfəsi ola bilər. Biz inanırıq ki, Sizin tamamlanmış bu böyük işiniz dünyanın çox yerində ifa olunacaq və çoxsaylı dinləyicilərin zövqünü oxşayacaq.

Sizə böyük ehtiramla: Kazio Sugapuama"

Beynəlxalq ictimaiyyətdən belə səmimi və zəngin təəssüratlarla dolu ilhamlı sözlər ancaq Fərhəng Hüseynov qədər istedadlı və mənəvi yüksəkliyi fəth etmiş insanlara ünvanlana bilər. O, buna layiqdir. O, bunu öz alın təri ilə qazanıb. O, öz dühası ilə qəlblərdə əbədi məskən salıb. Bu gün bu insan haqda keçmiş zamanda düşünmək və danışmaq olmur. Çünki, o, öz yaratdıqları ilə bizim qəlbimizdə məskən salıb. Musiqilərini dinləyəndə onun ruhu ilə kosmik əlaqə yaranır və zövqləri qidalandıran mükalimə başlanır.

Fərhəng Hüseynov yaradıcılığının müdrik və məhsuldar çağında cismən yer üzünü tərk edib. 2010-cu ilin 16 fevralda bilinməyən səbəbdən onun ürəyi dayanıb. Bu çox insafsız ölüm idi. Çünki, milyonlar ondan yeni əsərlər, həyatlarına xoş ovqat qatacaq musiqi sədaları gözləyirdi.

**Müdriklər deyirlər ki, bu cür seçilmiş insanları Tanrı çəkib öz ətəyinə aparır. Ancaq Tanrı sevgisi nə qədər güclü olursa olsun, insanların möhtac olduğu sevgi yer üzündə daha böyük savaba malikdir. Həm də Fərhəng Qarabağ nisgili ilə insanları tərk edib, ona görə ki, torpağımızın azadlıq marşını hələ yazmamışdı.**

**Novruz NOVRUZOV**